BRITISH COUNCIL

# İngilis dilinin ailədə öyrənilməsi



Birlikdə öyrənmək əyləncəlidir!



## İngilis dilinin qafiyələrlə öyrənilməsi

www.britishcouncil.org/parents

Bu kitabça valideynlərə yardım etmək üçün British Council tərəfindən sifariş edilən kitabça seriyalarından biridir.

- *Azyaşlı uşaqlar ingilis dilini xarici dil kimi necə öyrənir*
- *Uşağınızla ingilis dilində danışmaq*
- *İngilis dilinin şəkilli kitablar vasitəsilə öyrənilməsi*
- *İngilis dilinin qafiyələrlə öyrənilməsi*

Opal Dunn, Böyük Britaniyalı müəllif və təhsil üzrə məsləhətçi tərəfindən yazılmışdır

© British Council 2008

**Böyük Britaniyanın mədəni əlaqələr və təhsil imkanları üzrə beynəlxalq təşkilatı.**
A registered charity: 209131 (England and Wales) SC037733 (Scotland).

# Ön söz

Uşağınızın öyrənmə prosesində iştirakınız onların həm xarici dilə münasibətinə, həm də öyrənmə sürətinə müsbət təsir göstərə bilər. Valideynlər sinif otağından kənarda uşaqlarının dərslərinə kömək edəndə uşaqların sinifdə nailiyyətləri, həqiqətən də, yüksək olur.

Jim Nayt, Böyük Britaniyanın Təhsil Naziri: "Valideynlər ibtidai sinif şagirdlərinin öyrənmə prosesinə müəllimlərdən altı dəfə çox təsir göstərə bilirlər." Uşağınızı ingilis dilinə həvəsləndirmək və ondan istifadə etməyə özünə inam yaratmaq üçün bir neçə sadə addımlar ata bilərsiniz.

British Council-ın təhsil üzrə mütəxəssisləri bu işdə valideynlərə yardım etmək üçün yeni "İngilis dilini ailədə öyrənmə materialları" və xidmətləri işləyib hazırlamışlar. Ümid edirik ki, bu materiallardan uşağınızla birgə istifadə etmək sizin üçün faydalı olacaqdır. Həm də unutmayın ki, birgə öyrənmək daha əyləncəlidir!




British Council-in qlobal təcrübəsinə əsasən deyə bilərik ki, müəllimlər və valideynlər birgə işlədikdə uşaqların nailiyyət qazanmaq şansı daha çox olur.





Bu mərhələdə uşaqlar yalnız qafiyələrin sabit ifadələrində şifahi olaraq bildikləri sözləri oxuya bilirlər. Belə "oxuma" onların təkrarlanan sözlərin formalarını tanımaları ilə nəticələnir və daha sonralar onlar tanıya və "oxuya" bildikləri söz banklarını yarada bilirlər. Onlar təxminən eyni vaxtda tanıdıqları sözlərin səslərini təhlil etməyə başlayırlar (bax: British Council-in *"İngilis dilinin şəkilli kitablar vasitəsilə öyrənilməsi"* adlı kitabçası). Bu baxımdan həvəsləndirici oyunlardan biri də qafiyələnən sözlərin toplanmasıdır. Məsələn, "four," "door," "more," "flour," "saw."

Valideynlər və müəllimlər oxumağı öyrənmə ilə əlaqədar uşaqlarda təbii olaraq baş verən bu vacib mərhələ barədə hər zaman məlumatlı olmurlar. Uşaqlar isə bir çox sadə qafiyələri bilir və onlardan zövq alırlar.

Qafiyələri oxuya bilən uşaqlar təbii olaraq sadə şerləri oxumağa başlayırlar. Uşaqların qafiyələri və şerləri əzbər öyrənmək qabiliyyəti səkkiz yaşadək inkişaf etdirilərsə, bu, yeni dil öyrənməyə bərabər olur və bu bacarıq onlarda ömürlük qalır.





Bu zaman onlar mətn barədə düşünmək üçün vaxt əldə edirlər. Bir neçə vərəqi qurtardıqdan sonra onları qafiyə kitabına daxil edin. İngilis dilində yazı yazmaq qabiliyyətindən asılı olaraq, onların öz mündəricatını və kitabın üzlüyünü yaratmalarına şərait yaradın.

Növbəti dəfə kitab düzəldərkən bəzi uşaqlar qafiyələri özləri yazmaq istəyə bilərlər. Onlar həm də ad günü və ya bayram kartları hazırlamaq fikrində ola bilərlər.

Öz hazırladıqları kitablar uşaqları öz qafiyələrini yazmağa həvəsləndirə bilər. Bəzi uşaqlar ya bildikləri qafiyələri özününküləşdirmək, ya da digər qafiyələrdən mətn blokları götürməklə öz qafiyələrini yaratmağa başlayırlar. Bu çalışma yaradıcı xarakter daşıdığına görə onları həvəsləndirin.

Şəkilli qafiyə kitabına baxmaq həm də düşünmə imkanları yaradır. Hekayəli qafiyə kitabları ilə başlayın. Belə hekayələr şəkillərlə zəngindir və uşaqlar hesab edirlər ki, onlar həmin hekayələri söyləyə və "oxuya" bilirlər. Qafiyə topluları yeni başlayanları həvəsdən sala bilər. Çünki belə materiallar uşaqların şifahi formada bilmədiyi çoxlu sayda qafiyələri əhatə edir.

## Qafiyələrin oxunması

Araşdırmalar göstərir ki, əzbərdən bildikləri sadə qafiyələrin "oxunması" səlis oxumanın öyrənilməsi prosesində zəruri bir addımdır. Bilinən qafiyənin imla formasında deyilməsi və eyni zamanda mətndəki sözlərə işarə etmək uşaqlar üçün sevindiricidir. Bu zaman uşaqlar hesab edirlər ki, ingilis dilində nəyisə oxuya bilirlər.

Go to bed late,
Stay very small
Go to bed early,
Grow very tall







## Qafiyələrdən istifadə

Hesab edilir ki, sadə qafiyələr əksər mədəniyyətlərdə fitri xarakter daşıyır. Azyaşlı uşaqlar danışmağa başladıqları vaxtdan etibarən onların bir çoxu çıxardıqları səslərlə əylənmək və onları sınaqdan keçirməyi sevirlər. Bu isə onların sonralar qafiyələri xoşlayacağına işarədir. Onların bir çoxu səsləri yamsılamaq və qafiyələrin sözlərini və xüsusi ritmlərini yadda saxlamaq bacarığına malik olurlar.



Qafiyələrin özünəməxsus sözlərini yadda saxlamaq və təkrarlamaq isə azyaşlı uşaqlar üçün əyləncə formalarından biridir. Bəzi böyüklərdən fərqli olaraq, onlar qafiyələri şüuraltı, səy göstərmədən öyrənirlər.

Qafiyələrin qısa mətnləri ilə oynayaraq uşaqlar ingilis dilinin quruluşunu araşdırırlar. Onlar dilin işləkliyini öyrənir və ingilis dilindəki 44 səs və 26 hərf arasındakı münasibətlə tanış olurlar. Bu isə onlara sözləri təşkil edən səsləri aydınlaşdırmaq üçün yardımçı olur. Erkən öyrənmə prosesində qafiyələr vasitəsilə dilin belə öyrənilməsinə lazımi qədər əhəmiyyət verilmir.

Azyaşlı uşaqlar üçün qafiyələr və sadə şerlər arasında fərq olur. Ümumiyyətlə, qafiyələr qısa olur və həmqafiyə sözlər olan mətnləri əzbərləmək üçün səsdən ahəngdar istifadə edilməsindən, səslərin və sözlərin təkrarlanması asan olan cəlbedici ritmlərindən asılı olur. Ənənəvi və məşhur qafiyələr bəzən "Mother Goose" qafiyələri və ya uşaq bağçası qafiyələri kimi sinifləşdirilir. "Twinkle, Twinkle, Little star" və "Humpty Dumpty" kimi bir çox qafiyələr Britaniya mədəniyyətinin tərkib hissəsi hesab edilir.







"İlk şerlər" isə adətən dilin oynaqlığına deyil, daha çox ifadə edilən məna ilə bağlı olur. Bu isə uşağa tanış olan mühitdə olmayan hisslərin və təsəvvürlərin yaranmasına və yeni ideyaların kəşfinə zəmin yaradır. İlk şerlər milli, yaxud müasir xarakterli ola bilər; onlar sadə qafiyələrdən ibarət olurlar. Onlar daha az tanınır və uşaq bağçasında öyrədilən qafiyələr kimi nəsildən-nəslə keçmə ehtimalı az olur.

## Qafiyələrin əhəmiyyəti

Qafiyələr daşına bilən "oyuncaqlardır." Valideynlər və uşaqlar əhval-ruhiyyəni dəyişmək və ya asudə vaxtı əyləncə ilə doldurmaq üçün onlardan istənilən vaxtda və istənilən yerdə istifadə edə bilərlər. Qafiyələrdən istifadə etmək üçün oyuncaq, ləvazimat, hətta kitab belə lazım deyil. Onlar oyunu stimullaşdırmaq üçün istifadə edilən dilin səslənməsindən asılıdırlar. Bəzi qafiyələr fiziki hərəkətlərlə də müşayiət edilir. Bu da öz növbəsində qarşılıqlı anlayışa yardım edir və əzbərləmə vasitəsi kimi çıxış edir.

Qafiyələr azyaşlı uşaqlar üçün tam və qısa təcrübədir və onların məhdud diqqət çərçivəsinə uyğun gəlir. Onlar yığcam hekayə kimi olurlar. Belə ki, qafiyələrin başlanğıcı, sonu və məzmunu olur. Uşaqlar bu ardıcıllığı öyrəndikdən sonra inamlı olurlar. İfadə tərzinin sürəti əhval-ruhiyyəyə uyğun dəyişsə belə, uşaqlar anlayırlar ki, dil tərkibi sabitdir. Cəlbedici və əyləncəli dil - bir çox hallarda televizorda göstərilən reklam musiqilərinə bənzər - və qısa mətn qafiyələri asan və yaddaqalan edir.

Azyaşlı uşaqlar ingilis dilində dərhal ünsiyyət yaratmaq istəyirlər, lakin demək istədiklərini deyə bilməyəndə çaşıb qalırlar. Qafiyələr vasitəsilə onlar ingilis dilində yaxşı və böyüklər kimi tez danışa bildiklərini hiss edirlər. İngilis dilində müxtəlif oyunlar oynayıb əylənməkdən deyil, müəyyən çalışmaların uğurla yerinə yetirilməsinə, məsələn-hansısa qafiyəni tam öyrənməyə - inadla səy göstərməkdən razı qalmaq olar.






Xor formatı da əyləncəli ola bilər. Bu zaman valideyn və uşaqlar qafiyələri növbə ilə və ya birlikdə söyləyirlər. Utancaq uşaqlar təkbaşına çıxış etmək üçün hazır olanadək xor qruplarının üzvləri ola bilərlər.

## Yaddaşda saxlama

Qafiyələri yazmaq üçün kifayət qədər yaddaşa malik olan MP3 pleyerlər aşağıdakı funksiyalar baxımından qiymətli imkanlar yaradır:

- Yazılmış olan materiala qulaq asmaq
- Yaddaşa yazmaq
- Nitqin inkişaf etdirilə biləcəyi sahələri müəyyənləşdirmək üçün təkrar dinləmə
- İkinci, daha yaxşı ifanı yazmaq.

Uşaqlar öz "səhvlərinə" tənqidi yanaşırlar və onların çoxu hər dəfə öz ifalarını yazmaq istəyirlər. Onlar öz tələffüzləri ilə qane olanadək bunu davam etdirmək istəyirlər.

## Qafiyə kitablarının hazırlanması

Latın əlifbasını bilən və 26 hərfin səsləri ilə tanış olan uşaqlar bir çox hallarda qafiyələri oxumağa və hətta yazmağa meylli olurlar. Yaxşı tanış olan və sadə qafiyənin surətini çıxarın və onu birlikdə oxuyun. Daha sonra, növbə ilə bir-bir qafiyədəki sözlərə işarə edərək uşaqların həmin qafiyəni ucadan oxumasına şərait yaradın (özü-özünə imla çalışması yerinə yetirmək). Uşaqlar tezliklə öyrənirlər ki, onlar ingilis dilində sadə sözləri oxuya bilirlər. Sonra uşaqlara qafiyə yazılmış vərəqi bəzəməyə icazə verin.





## Qafiyə vaxtları

Planlaşdırılmış qafiyə vaxtlarına aşağıdakılar daxil edilməlidir:

- əvvəlki sevimli qafiyələr
- son zamanlarda öyrənilmiş qafiyələr
- yeni öyrənilmiş qafiyələr.

Bir və ya iki sevimli qafiyə ilə başlamaq yaxşı fikirdir. Bu, uşaqlara şərait yaradır ki, onlar ingilis dilində qulaq asma və bu dildən istifadəyə uyğunlaşsınlar. Sevimli qafiyənin təkrarlanma sayı uşağın əhval-ruhiyyəsindən asılıdır. İkinci təkrar daha çox növbələşmə ilə baş verməli və uşağın əhval-ruhiyyəsi münasib olarsa, üçüncü təkrar uşağa qafiyəni və ya onun bir hissəsini demək imkanı yaratmalıdır.

Öyrətməyə hazırlaşdığınız qafiyənin uzunluğu onun ayrıca bir oxu, yaxud ingilis dilində planlaşdırdığınız oxuya giriş olmasından asılıdır (bax: British Council-in "Uşağınızla ingilis dilində danışmaq" adlı kitabçası). Qafiyənin birinci sətirlərdən istifadə edərək proqramı əvvəlcədən hazırlamaq maraqlı olur. Belə olduqda artıq ana dilində oxuya bilən uşaqlar proqram üzrə işləyə bilərlər və bir neçə qafiyə bildikdən sonra öz proqramlarını tərtib edə bilərlər.

Qafiyələrin nümayiş etdirilməsi

Xüsusi tədbirlər zamanı (məsələn, yaşlılardan birinin ad günü zamanı) uşaqların iki və ya üç qafiyə söyləmələri üçün qafiyə nümayişləri planlaşdıra bilərsiniz. Uşaqlar öz bacarıqlarını göstərməyi sevirlər və tərifləndikləri zaman onlar həvəslənirlər. Belə nümayişlər üçün hazırlıq zəruridir. Çünki həmin hazırlıq işləri uşaqlara çalışmaq və öz tələffüz və ifa tərzlərini yaxşılaşdırmaq üçün əsas verir.



İngilis dilində danışmağı öyrənmək bəzi azyaşlı uşaqlara həddən artıq çətin görünə bilər. Qafiyələrin öyrənilməsi onları həvəsləndirmə istiqamətində atılan addım ola bilər. Uşaqlar öz nailiyyətlərini lazımi səviyyədə qiymətləndirmədiyi zaman, ingilis dilinin öyrənildiyi ilk dövrlərdə qafiyələr xüsusilə faydalı ola bilər.

Bəzən ingilis dilində danışmaqdan çəkinən azyaşlı uşaqlar bir çox hallarda onları həvəsləndirən yaşlı adamla qafiyələr söyləməklə danışmağa başlayırlar. Sabit və əyləncəli mətni bölüşməklə onların özünə inamı artır və onlar qısa bir qafiyənin əksər hissəsini özləri deyə bilirlər.

## Qafiyələrin seçilməsi

Qafiyə toplusu (qafiyə bankı) yaratmaq zəruridir. Bunu etmək üçün valideynlər qafiyələrin uzunluğundan və uşaqların öyrənmə marağı və hazırlığından asılı olaraq hər həftə bir və ya iki yeni qafiyə təqdim etməyə hazırlıqlı olmalıdırlar. Bəzi günlər uşaqlar yeni materialları daha tez qəbul edirlər və onların belə əhval-ruhiyyəsinə uyğunlaşmaq vacibdir.

Qafiyələrə aşağıdakı mənbələrdə rast gəlmək olar:

- **Şəkilli qafiyə mətni kitabları** - Frances Lincoln tərəfindən nəşr edilən və Jessica Souhami tərəfindən yazılan "In the dark, dark wood" (Çox qaranlıq meşədə) adlı kitab kimi, bütöv bir qafiyənin bir şəkilli kitabda yerləşdirilməsi
- **Qafiyə antologiyaları** - Frances Lincoln/Mother Goose Sterling Publisher tərəfindən nəşr edilən və Opal Dunn və Adriano Gon tərəfindən yazılan "Number Rhymes to say and play!" (Demək və oynamaq üçün rəqəmli qafiyələr) kimi mətnə yardımçı xarakter daşıyan daha az şəkilli seçmə qafiyə kitabları
- **Ənənəvi qafiyələr** - "The Ladybird Book of Nursery Rhymes - Humpty Dumpty" (Uşaq bağçası qafiyələri parabüzən kitabı)







**Ailə üzvləri** - Ailə üzvlərinin bildiyi qafiyələrin öyrənilməsi yaxşı fikirdir. Çünki belə qafiyələr ailə üzvləri tərəfindən bölüşdürülür və həm də uşaqları ailə üzvlərinə qoşulmağa həvəsləndirir.

Valideynlər qafiyələri seçərkən özlərinin də xoşladığı qafiyələri seçməli və aşağıdakıları yadda saxlamalıdırlar:

- Uşaqların ingilis dili bilmə səviyyələrinin artması
- Uşaqların inkişaf edən maraqları və gender ehtiyacları - oğlanlar aşağıdakı qafiyə ilə əlaqədar fiziki hərəkətləri xüsusilə xoşlayırlar:

*Jeremiah, blow the fire,*
*Puff, puff, puff*
*First you blow it gently*
*Then you blow it rough*

- Faydalı ifadələri gündəlik nitqə keçirmək
- Mümkün olarsa, digər ailə üzvlərinin bildiyi bəzi qafiyələri daxil etmək
- Ailə üzvlərinin adlarına uyğun gələn qafiyələrin daxil edilməsi

*Diddle, diddle dumpling*
*My son John,*
*Went to bed*
*With his trousers on*

- Ailə tədbirlərinə və ya ailənin gündəlik həyatına şamil edilə bilən bəzi qafiyələrin daxil edilməsi

*I scream,*
*You scream*
*We all scream for ice-cream*
*What would you like?*
*Chocolate, lemon, vanilla or*
*One is for you and one is for me*



Əvvəlcədən müəyyənləşdirilmiş hərəkətlər olmadıqda sadə hərəkətlər uydurun. Çünki fiziki iştirak əzbərləməyə yardım edir və hərəkətlər "öz qabiliyyətindən razılıq" faktoru yaradır. Zəruri sözləri vurğulayın və sözləri qafiyələndirin. Yeri gəldikdə tərcümə variantlarını pıçıldayın.

Yeni qafiyə öyrənildikdən sonra uşaqlar növbə ilə həmin qafiyəni söyləməyə hazır olurlar və siz növbə ilə qafiyənin sətirlərini söyləyə bilərsiniz. Növbə ilə söyləməyi öyrənmək zəruri bacarıqdır. Ona görə ki, bu zaman diqqətlə qulaq asmaq, riskə getmək, digərinə qarşı anlayışlı olmaq və onlar danışarkən qiymətləndirmə aparmaq buraya daxildir.

Uşaqlar qafiyənin əksər hissəsini əzbərdən bilsələr də, onlar həmin qafiyəni öz başlarına demək üçün hazırlıqlı olmaya bilərlər.

## Qeyri-rəsmi qafiyə sessiyaları

Ailədə nə qədər çox qafiyə deyilərsə, qafiyələrin gündəlik üslubu uşaqların həyatı və nitqinin tərkib hissəsinə o qədər tez çevrilir. Şəxsi qafiyə toplusunun yaradılması zəruridir. Çünki uşaqlar nə qədər çox qafiyə bilsələr, bir o qədər çox öyrənmək istəyirlər. Qafiyələrin deyilməsi əyləncəlidir!

Valideynlər və uşaqlar dükanda növbədə gözləyərkən və ya uzun səyahət zamanı boş vaxtlarda bir və ya iki qafiyə deyə bilərlər. Valideynlər bu sessiyaları başlamalıdırlar. Lakin uşaqlar öz təkliflərini də əlavə etməyi xoşlayırlar. Uşaqlar bir çox hallarda qafiyəni təkrarlamalıdırlar. İkinci dəfə onların düşünmək və qafiyəni söyləmə tərzini inkişaf etdirmək imkanları yaranır. Uşaq daima öz tələffüzündə düzəlişlər edir. Lakin onlar tələsdirildikdə və onların çalışmaq imkanları olmadıqda belə düzəlişlər baş verməz. Yeni qafiyələrin rəsmi qafiyə vaxtlarına saxlanması daha yaxşı olardı.







Bir çox qafiyə kitablarında qavramaya yardım etmək üçün əlavə şəkillər olur. Şəkillər olmadıqda valideynlər mənanın başa düşülməsinə yardım etmək üçün kiçik eskizlər çəkə, oyuncaqlar və ya həqiqi əşyalar göstərə bilərlər. Sözlərin hər hansı formada tərcüməsi yalnız bir dəfə, ingilis dilindəki sözün daha sonra təkrarlanması ilə və pıçıltı ilə deyilməlidir.

## Yeni qafiyənin təqdim edilməsi

Valideynlər yeni qafiyaların təqdim edilməsi zamanı sadələşdirilən üslubdan istifadə etməlidirlər (bax: British Council-in "Uşağınızla ingilis dilində danışmaq" adlı kitabçası). Qısa qafiyalarda istifadə edilən ifadələrin təqlidi və öyrənilməsi adətən asan olur. Ona görə də, uşaq qafiyəni öyrəndikcə sadələşdirilmiş üsullarından daha az istifadə edilir.

Uşaqlardan öz öyrəndiklərini möhkəmləndirmək tələb olunarsa, səsləri, sözləri və onların mənalarını başa düşdükləri kimi və onların çatdıra biləcəyi vaxtda müəyyənləşdirməsi və müqayisə etməsinə zaman lazımdır. Uşaqlar tələsdirilməməli və onlardan böyüklər qədər sürətli çalışmaq tələb edilməməlidir. Bu, xüsusilə də yeni qafiyənin öyrənilməsi zamanı ilkin mərhələdə belə olmalıdır. Təkrar etmək böyüklər üçün darıxdırıcı ola bilər. Lakin bu uşaqlar üçün vacibdir. Ona görə ki, təkrar etmək uşaqlara instinktiv qaydada dil və səsləri düzəltmək imkanı yaradır. Təkrar etmək həm də uşaqlara bildiklərini təsdiqləmək imkanı yaradır və bu da öz növbəsində onlarda özünə əminlik yaradır.

Qafiyəni yavaş-yavaş emosiya ilə deyin və ifadə edilən mənanı hərəkət, şəkil və ya əşyalarla möhkəmləndirin.



Əksər ehtiyacları ödəmək üçün çeşidli qafiyə seçimləri mövcuddur:

**Salam və ya sağ ol qafiyələri**

Hi Mary!
How are you?
Fine, thanks.
What about you?

**Hərəkət ifadə edən və barmaq oyunu qafiyələri**

10 fingers,
10 toes,
2 eyes
And a round nose

**Qafiyə oyunları**

Acker Backer Soda Cracker, Acker Backer Boo!
Acker Backer, Soda Cracker
Out goes YOU!

One potato, two potatoes, three potatoes, four,
Five potatoes, six potatoes, seven potatoes, more?

One banana, two bananas, three bananas, four





**Mövzulu qafiyələr**

Two big apples
Under a tree,
One is for you
And one's for me.

Rain, rain, go away!
All the children want to play
Rain, rain, go away!
Come again another day

**Ənənəvi qafiyələr / Mother Goose rhymes**

Twinkle, twinkle, little star
How I wonder what you are
Up above the world so high
Like a diamond in the sky
Twinkle, twinkle, little star
How I wonder what you are




## Qafiyəni necə deməli

Qafiyələrin canlı alınması valideynlərin səsləri, gözləri, üz ifadələri və hərəkətlərindən istifadə etmələrindən asılıdır (bax: British Council-in "Uşağınızla ingilis dilində danışmaq" adlı kitabçası).



[illegible]



Uşağın diqqətini saxlamaq üçün yeni qafiyənin təqdimatı təsirli olmalı və bu zaman səs qafiyəni müşayiət etməlidir. Eşitmə qabiliyyəti böyüklərdən yaxşı olan uşaqlar qafiyə ilə daha yaxından tanış olur və böyüklərin emosiyalarını onların səsi vasitəsilə başa düşməyi öyrənirlər və artıq onların fiziki hərəkətlərlə onlara yardım edilməsinə ehtiyac qalmır. Bu baş verdikdə uşaqlar bir çox hallarda fiziki hərəkətləri özləri edir və artıq valideyn həmin hərəkətləri dayandıra bilər.

Bir çox ənənəvi qafiyələri həm nəql etmək, həm də oxumaq olar. Uşağın yalnız bir vəzifəsinin olmasını - sözləri öyrənməsini - təmin etmək üçün başlanğıcda qafiyələri nəql etmək daha yaxşı olardı. Uşaqlar sözləri və melodiyanı eyni vaxtda öyrənməli olsalar, bu o deməkdir ki, onlar iki çalışmanı eyni vaxtda yerinə yetirirlər. Bu isə bəzi uşaqlar üçün nisbətən mürəkkəb bir çalışma ola bilər.

Əvvəlcə qafiyəni oxumağı öyrənən bəzi uşaqlar oxuduqları qafiyəni nəql formasına çevirməkdə çətinlik çəkirlər. Bu isə bəzi ifadələri dialoqa çevirərkən onların "mahnı üslubunda" danışması ilə nəticələnir.



## Yeni qafiyənin başa düşülməsi

Qafiyələr bir yerə yığılan sabit ifadələrdən və ya mətn bloklarından təşkil edilir. Uşaqlar bir çox hallarda kiçik funksiyalı sözlərin ("the" və ya "for" kimi) fərqinə varmadan bu sabit ifadələri öyrənir və həmin ifadələri ayrı-ayrılıqda sözlər kimi deyil, mətn blokunun tərkib hissəsi kimi eşidirlər (məsələn, "one's for you").

